"Sən məni sözümdə gör"

# İlham Qazaxlının seçilmiş şeirlərinə "ön söz" əvəzi

*(Əvvəli ötən sayımızda)*

İlham Qazaxlı gözəl şeirin, ruhları oxşayan poeziyanın insanlara mənəvi yardımçı olmağını yaxşı bilir. Əgər o poeziyanın nüvəsində hikmət varsa, insanı yaşamağa çağırış gücü varsa, demək, yaşarıdır. İlham özündən əvvəlki poeziyanı təkrar-təkrar oxuyur. Ruhunda Nizami hikmətinin təsiri duyulur. Yunis İmrə gözütoxluğu var. Füzuli həzinliyi var şeirlərində. Və şeirlərini də elə ululların sözünün davamı kimi görür:

Zehnimdə yoğruldu, canımdan gəldi,
Ruhumdan süzüldü, qanımdan gəldi,
Nəşəli kədərli anımdan gəldi,
Hikmətdən yarandı şeirim mənim.

Tanrı öz lütfünü eyləmədi kəm,
Aydın düşüncələr başda oldu cəm,
Duyğumu şeirə çevirdi qələm,
Qüdrətdən yarandı şeirim mənim.

"Şeirim" adı ilə təqdim olunan bu poetik əsər əslində İlham Qazaxlının yaradıcılıq iztirablarının kardioqrammasıdır. O, sözün necə, hansı çətinliklərdən keçərək sənət örnəyinə çevrilməsini yazıya gətirib. Axı həqiqətən, şeir əvvəlcə insanın düşüncəsində doğulur. Sanki ruhundan süzülür, qanından keçərək cana gəlir. İlham üçün şeir canlı bir varlıq kimi qavranılır. Hər bir canlını İlham ulu yaradanın lütfü hesab edir. Bu mənada onun üçün şeirin də ilk yaradıcısı, əsas müəllifi elə ulu yaradandır. Qələm ulu yaradanın duyğular, düşüncələr kimi insana bəxş etdiyini sözə çevirir.

Etdiyim savablar tutdu qolumdan,
İmdad gözləmədim sağım-solumdan,
Geri çəkilmədim öz haqq yolumdan,
Cürətdən yarandı şeirim mənim.

Əymədim şux qəddi yada, zalıma,
Qoymadım namərdlər gülə halıma,
Güvəndim ağlıma, öz kamalıma,
Fitrətdən yarandı şeirim mənim.

Sözsüz ki, qəlbi humanist hisslərlə dolu olan şair insanlara xeyirxahlıq duyğuları bəxş edən bir mələkdir. İlham Qazaxlı üçün şair gərək təbiət etibarı ilə xeyirxah olsun. İnsanlara əməli ilə yardımçı olsun. İnsanın yaşamaq, yaratmaq duyğularının qanadlanmasına xidmət etsin. Bu zaman şair bütün xeyirxah əməlləri ilə birlikdə obraza çevrilir. Bu gün Səməd Vurğunu daşlayanlar unudurlar ki, əsil Səməd Vurğun əslində insanların qəlbindədir.

İnsanların könül duyğularında yaşayan sənətkarı daşlamaq mümkün deyil. Bu daşların hamısı qayıdıb o bədxahların başlarına ələnəcək. İlham Qazaxlının bu şeirində sözün həqiqi mənasında şairlər vətəni bizim tərəflər deyən Səməd Vurğunun ruhu bütün aydınlığı ilə duyulur. Məlumdur ki, poeziyasında təkcə ilhamı ilə təqdir olunmur. Onun hər bir poetik əsəri bütövlüyünə görə də fərqlənir və İlham Qazaxlının bu şeirində həmin bütövlüyü görmək heç də çətin deyil.

İlham Qazaxlının uğurunu təmin edən bir keyfiyyət də onun müasirlərinə, yaxınlarına, ümumiyyətlə insanlara doğmalığıdır. Və bu doğmalığı etiraf etməkdən, sözə gətirməkdən o məmnunluq duyur:

Bağlandım sevgiylə dosta-yoldaşa,
Arxa-dayaq oldum bacı-qardaşa,
Məhəbbət bəslədim yara-sirdaşa,
Ülfətdən yarandı şeirim mənim.

Qorxmadı daşqından, tufandan, seldən,
Düşmədi ağızdan, dodaqdan, dildən,
Aldı qiymətini vətəndən, eldən,
Hörmətdən yarandı şeirim mənim.

Beləcə, İlham Qazaxlının təkcə elə bir şeiri, yəni "şeirim mənim" rədifi ilə yazılmış bu poetik əsəri onun poeziyada artıq bütövləşmiş obrazını görməyə bəs edir.

İ.Qazaxlı türk əsgərini tərənnüm edəndə, yaxşı bir insanı tanıdığını poetik əsəri ilə bəyan edəndə və yaxud ümumiyyətlə, şairlərin kimliyinə sözü ilə işıq tutanda, bir sözlə, bütün hallarda şairdir, sözə, sənətə varlığı ilə bağlı şairdir.

İlham Qazaxlının dünyagörüşündə Azərbaycanın müstəqilliyinə qovuşmasından sonra baş verən hadisələr dərin iz buraxıb. Həyatının qaynar gənclik çağlarında o, nəhəng Sovet imperiyasının çöküşünü gördü. Orta məktəbdə oxuduğu illərin təsiri altında yəqin ki, böyük vətən anlamının nə qədər saxta olduğunu da başa düşdü. Və bundan sonrakı hadisələr əslində onun mənəvi mühitinin yenidən və əsaslı şəkildə formalaşmasına təsir göstərdi. Hər birimizə məlumdur ki, Azərbaycanın müstəqilliyə qovuşduğu illərdə mənəvi müdafiəyə ciddi ehtiyacı vardı. O dövrdə Azərbaycanın müstəqilliyini iki ölkə - qardaş Türkiyə və doğma Pakistan ən ilkin tanıyanlardan oldu. Sonrakı mərhələdə siyasi hadisələrin başıpozuq, xaotik inkişafı o qədər ciddi problemlər yaratdı ki, Azərbaycan siyasi arenada təkləndi. Bunların hamısını İlham Qazaxlı müşahidə edirdi. Nəhayət, uzun illərin ağrı-acıları ilə müşayiət olunan işğal dövrü başladı. Azərbaycanın tarixi torpaqları, əzəli yurdları erməni vandalları tərəfindən təkcə işğal olunmadı, həm də talan edildi. Son nəticədə şəhərlər, kəndlər xarabazarlığa çevrildi. Nəhayət, 2020-ci ildə qardaş Türkiyənin xüsusi dəstəyi ilə Azərbaycan öz torpaqlarını işğalçılardan azad etməyə başladı. Doğrudur, erməni vandallarına elə gəlirdi ki, Azərbaycan öz gücü ilə torpaqları azad edə bilməz. Amma onlar unudurdular ki, Azərbaycan artıq dünyanın ən qüdrətli ordularından sayılan türk ordusunun döyüş təcrübəsini mənimsəyən hərbi gücə malikdir. İlham Qazaxlı türk ordusunun yüksək hərbi təcrübəsini, döyüş imkanlarını mənimsəmiş olan Azərbaycan oğullarının inamlı döyüşlərindən ilham alırdı. Və o, eyni zamanda Azərbaycan ordusunun tərənnüm etdiyi kimi türk əsgərinin də qüdrətini çox böyük istəklə qələmə alır. Bu gücün nəyə qadir olduğunu, hansı tarixi qaynaqlara güvəndiyini sözü ilə həqiqətə çevirir. Onun "Qəhrəman türk əsgəri" adlı bir şeiri var. Bu şeirin dəyəri ondadır ki, müəllif türk əsgərini təkcə şəxsi qüdrətinə görə tərənnüm etmir. Eyni zamanda türklüyün tarixi köklərini yada salır. Qəhrəman türk sərkərdələrini xatırlayır. Və beləliklə, bu ordunun yenilməzliyinin həm də psixoloji köklərini açır: "Cəsarətin şərəfindir, Haqqın yolu səfərindir, Çanaqqala zəfərindir, Ey qəhrəman türk əsgəri! Atılla, Mete, Oğuz xan, Fəxrindir böyük Çingiz xan, Atatürkdür ölməz dühan, Ey qəhrəman türk əsgəri! Birləşəcək böyük Turan, Açılacaq yeni dövran, Səninlədir uğur hər an, Ey qəhrəman türk əsgəri!". Göründüyü kimi, müəllif türk əsgərinin qüdrətini hələ vətən müharibəsinin başlanmasından əvvəl müşahidə etmiş və öz güvəncini qələmə aldığı bu şeirlə göstərmişdir. "Qəhrəman türk əsgəri" şeirini müəllif 19.01.2016-cı ildə yazmışdır. Bu o dövrdür ki, Azərbaycan əsgəri artıq işğalçı erməni ordusunun təxribatlarını cavabsız qoymurdu. Qarşıda aprel döyüşləri dayanırdı. Deməli, İlham Qazaxlı dəqiq müşahidə edib ki, qəhrəman türk əsgərindən dyüş təcrübəsini əxz etmiş Azərbaycan ordusu tarixi torpaqlarımızın tapdaqdan azad olunması üçün qətiyyət göstərəcək.

Vətən müharibəsi İlham Qazaxlının inamında nə qədər haqlı olduğunu bir daha təsdiq etdi.

İlham Qazaxlının yaradıcılıq əhatəsi çox genişdir. O, həyatın gətirdiyi ən mühüm tarixi olayları məmnunluqla poeziyaya çevirə bilir. Onun yaradıcılığının ənənəvi poeziyamızla bağlı olan bir cəhətini də burada qeyd etmək yerinə düşər. Bu da xüsusilə aşıq yaradıcılığından gələn ustadnamə ruhudur. İlham Qazaxlı ustadnamə ruhunda yazdığı şeirində ənənənin nə qədər yaşarı olduğunu da təsdiq edir.

Yıxılan görəndə etmə tamaşa,
Sənin də ayağın dəyər bir daşa,
İstər əlli yaşa, istər yüz yaşa,
Çalış xoş əməllə yaşa dünyada.

Qazaxlı sözünü etdi müxtəsər,
İnsanlıq duyğusu ən böyük əsər,
Mərhəmətsiz insan ömründən kəsər,
Çalış xoş əməllə yaşa dünyada.

Bu şeirin ruhunda Abbas Tufarqanlı, Xəstə Qasım, Habelə Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər ruhu açıq-aşkar duyulur. Müəllif dünya obrazına tez-tez müraciət edir. Onun müraciətlərində dünyanın bu və ya digər dərəcədə görünən tərəfləri üzə çıxır. O, bəzən dünyanı qəzəbli görür, bəzən də dünya onun üçün çox mülayimdir, qayğıkeşdir. Ancaq, əlbəttə, dünyanın coşmağı da var, daşmağı da var: "Qorxuludur coşan seli, Amansızdır əsən yeri, Çox qəlizdir hökmü dili, Bu dünyanın, bu dünyanın... Qazaxlı, aç tök içini, Az dağla, az sök içini, Kimsə durdurmaz köçünü, Bu dünyanın, bu dünyanın". İlham Qazaxlı qəlbi sevgi ilə coşan, çağlayan sənətkar olduğu üçün o, bu sevginin dəyərini uca tutur. Sanki hər kəsə çatdırmaq istəyir ki, həyatın nizamı sevgimizlə çox bağlıdır. Sevgimizin varlığı həm də həyatımızın mənasıdır.

Çağlayan şəlalə, coşan dənizdir,
Özülü möhkəmdir, ruhu təmizdir,
Bizi səadətə aparan izdir,
Könül qovuşduran yoldu sevgimiz.

Dəryadır, ümmandır, arzudur, kamdır,
Sevən könlümüzü isidən şamdır,
Dodaqda şirinlik, ağızda tamdır,
Şəkərdir, noğuldur, baldır, sevgimiz.

...Bəxş edən ən gözəl anı, saatı,
Bəzəyib, oxşayan ömrü, həyatı,
Qazaxlı bəlkə də şeir, bayatı,
Dildə dastan olub, qaldı sevgimiz.

Şairin müşahidədən gələn qənaətləri əslində sevginin ona məlum olan tərəflərinə işıq salır. Müəllif həyatın kölgəli tərəflərini işıqlandırarkən qüsur və nöqsanları da görməzdən keçmir. Onun bir çox şeirlərində tazıyanə ruhu var. Nadanları, bədxahları qamçılamaq gücü var.

Şair sanki həyat yolunda inamla üzü gələcəyə doğru gedir və o, gördüklərini yazıya gətirir. Onun "Qarışıq fikirlər" adlı bir şeiri var.

Vaxt tapa bilmirəm şeir yazmağa,
Bir allah bilir ki, nələr çəkirəm,
Hünərim də çatmır dərdi yazmağa,
Yol boyu qəm səpib kədər əkirəm.

Çırpınır quş kimi möhnətdən qəlbim,
Həyatdan bir nəşə, zövq alammıram,
Yaxşı ki əzaba dözəndi səbrim,
Dözürəm, sınmıram, parçalanmıram.

...Yorsa da qəlbimi qayğılar heyhat,
Sənətə bağlıdır, ruhum, nəfəsim...
Nə qədər amansız olsa da həyat,
Tükənməz yaratmaq eşqim, həvəsim.

İlham Qazaxlının həyat yolu beləcə poeziyadan keçir. O, öz həyatının mənasını yazmaqda, yaratmaqda görür. Bütün həyatı boyu özünü, taleyini sözə bağlayan bir sənətkar kimi tanınan İlham Qazaxlı həm də ədəbi mühitdə şəxsiyyəti ilə özünü, nüfuzunu təsdiq etmişdir.

Şair şəxsiyyəti ilə yaradıcılığı bir-birini tamamlayanda cəmiyyətin istəkləri sözdə öz təsdiqini tapır. Adamlar inanırlar ki, ali məqam insanın dediklər həyatdan gələn həqiqətlərdir. Hər halda İlhamı tanıyanların hamısı onun humanist, insanpərvər şəxsiyyət olduğunu təsdiq edir.

İlham Qazaxlının üzümüzə gələn ilin yazında 50 yaşı tamam olacaq. 50 yaş insan həyatının kifayət qədər dolu dövrüdür. Zənnimizcə, hələ İlham Qazaxlı bundan sonra daha dolğun fikirləri özündə əks etdirən poetik örnəkləri ilə bizi sevindirəcək.

***10.11.2022***